## Xalq rəssamı İsmayıl Axundov

# Rəssam İsmayıl Axundovun Azərbaycan teatrındakı səhnəqrafiya fəaliyyəti

**Fəridə Quliyeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: feridequliyeva.66@mail.ru

**Annotasiya.** Azərbaycanın teatr rəssamı, qrafika və plakat ustası, Azərbaycan SSR-nin Xalq rəssamı, Dövlət Mükafatı laureatı, zəngin yaradıcılıq yolu keçmiş İsmayıl Axundov (1907-ci il – Bakı) 1937-ci ildən Azərbaycan Dövlət Dram Teatrında və respublikanın digər teatrlarında çalışmış və bir çox tamaşalara quruluş vermişdir. Teatr rəssamı qismində uğurlu fəaliyyətə başladığı ilk vaxtdan İ.Axundovun səhnəqrafik quruculuq nailiyyətlərini işıqlandırmaq mövzunun bilavasitə hədəfini təşkil edir.
**Açar sözlər:** rəssam, İsmayıl Axundov, səhnəqrafiya, teatr, bədii tərtibat, üslub

**Məqalə tarixçəsi:** göndərilib – 21.04.2022; qəbul edilib – 01.05.2022

# Scenographic creativity in Azerbaijani theater of the artist Ismail Akhundov

**Farida Guliyeva**
Doctor of Philosophy in Art studies
Institute of Architecture and Art of ANAS. Azerbaijan.
E-mail: feridequliyeva.66@mail.ru

**Abstract.** Ismail Akhundov, theater artist, master of graphics and posters of Azerbaijan, People's Artist of the Azerbaijan SSR, laureate of the State Prize (was born in 1907 in the vicinity of Baku and died in 1969 in Krakow), had a rich creative career, and from 1937 worked in Azerbaijan State Dramatic Theater and at the many other theaters of republic, did the stage artwork for a number of performances. The direct target of this article is to highlight exceptionally the achievements of I. Akhundov’s scenographic creativity, who successfully solved these problems during the time of his functioning as a theater artist.
**Keywords:** artist, Ismail Akhundov, scenography, theater, decoration, style

**Article history:** received − 21.04.2022; accepted − 01.05.2022

## Giriş / *Introduction*

Azərbaycanın teatr rəssamı, qrafika və plakat ustası, Azərbaycan SSR-nin Xalq rəssamı, Dövlət Mükafatı laureatı İsmayıl Axundov 1924-28-ci illərdə Azərbaycan Rəssamlıq Məktəbində təhsil almışdır.

İlk yaradıcılığa C.Məmmədquluzadənin rəhbərlik etdiyi məşhur "Molla Nəsrəddin" jurnalında özünün satirik rəsmləri ilə başlayıb. Rəssamın yaradıcılığında satirik qrafika ustası Ə.Əzimzadənin ənənəsi hiss olunur.

**Əsas hissə / *Main Part***

Bakı Rəssamlıq Məktəbini bitirdikdən sonra Moskva Poliqrafiya İnstitutunun Nəşriyyat şöbəsində təhsil alıb. 1932-ci ildə təyinatla Bakıya göndərilib və Azərbaycan Dövlət Nəşriyyatında ("Azərnəşr") rəssam vəzifəsində çalışmağa başlayıb. Burada o, rəssamlığın qrafika, karikatura və plakat kimi janrları üzrə yaradıcılıqla məşğul olub. Rəssam uzun müddət 1952-ci ildən nəşrə başlamış "Kirpi" satirik jurnalında fəaliyyət göstərib.

1937-1940-cı illərdə Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin direktoru təyin edilmiş, 1940-cı ildən Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin (indiki Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi) direktoru və eyni zamanda baş rəssamı vəzifələrini uğurla icra etmişdir.

Böyük Vətən müharibəsi illərində o, cəbhəyə gedən rəssamlardan ibarət təbliğat qrupuna (briqadasına) rəhbərlik edib, orada cərəyan edən hadisələrə aid plakatlar çəkib.

Müharibənin sonunda o, İran Azərbaycanının sakinləri üçün ünvanlanan ərəb qrafikası (yaxud əski əlifba) ilə Azərbaycan dilində nəşr olunan "Sovet Azərbaycanı" jurnalının baş rəssamı olub.

İkinci Dünya müharibəsindən sonrakı illərdə o, İdmançılar günündə Moskvanın Qızıl Meydanında keçirilən paradlar üçün Azərbaycan idmançılarının sırasını dəfələrlə tərtib edib. İ.Axundov layihələndirdiyi idman geyimi formalarında milli geyim elementlərinin üstünlük təşkil etməsinə məharətlə nail ola bilmişdir.

1940-cı illərin axırlarından 1950-ci illərin ortalarına kimi, İ.Axundov Ümumittifaq Xalq Təsərrüfatı Sərgisində (ВДНХ) Azərbaycan SSR pavilyonunun baş rəssamı olmuş və 1954-cü ilin avqustuna kimi sərginin müharibədən sonrakı bərpasında iştirak etmişdir. O, uzun illər Azərbaycan SSR Dövlət Mahnı və Rəqs Ansamblının da geyim üzrə rəssamı olmuşdur [6].

İ.Axundov 1937-ci ildən Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında və respublikanın bir sıra teatrlarında çalışmış, bir sıra tamaşalara quruluş vermişdir. Artıq bu vaxtdan teatr rəssamı qismində uğurlu fəaliyyətə başlamış İ.Axundovun səhnəqrafik quruculuq nailiyyətlərini işıqlandırmaq mövzunun bilavasitə hədəflərinə aiddir.

Əsasən Azərbaycanda professional səhnə tərtibatı işi 1920-ci ildən sonra başlayaraq tədricən inkişaf etmişdir. Bu illərdə teatrımızda rəssam-dekorator kimi Nikolay Kuleş, Vyaçeslav İvanov, Əzim Əzimzadə, Rüstəm Mustafayev kimi rəssamlar fəaliyyət göstərmişlər.

Ümumiyyətlə, XX əsrin səhnə tərtibatı tarixində sürətlə davam edən üslub dəyişkənliyi müəyyən mənada Azərbaycan incəsənətində də müşahidə olunmuşdur. XX əsrin II yarısının teatr dekorasiyasının vəziyyətini Sovet-Rusiya kulturoloqu Bella Erenqross belə şərh edir: "*Müasir tamaşaların bədii tərtibatında illüstrasiyalılıqdan daha çox qaçılmış, səhnədə nəqledici detalların sayı azaldılmaqdadır, tamaşalar daha çox dinamikləşir, dekorasiyalarda daha çox lakonikliyə meyil artmışdır*" [4, s.77].

Azərbaycanda 1930-cu illərdə teatra gələn yeni yaradıcı nəslin ixtisaslı milli kadrları sırasında xüsusi yer tutan rəssam-dekorator İ.Axundovun yaradıcılığına da peşəkar təhsilli ilk teatr rəssamımız Rüstəm Mustafayevin kamil dəst-xətti öz təsirini göstərmişdir.

Yaradıcılığının ilk illərində "*konstruktivliyə*" meyil edən R.Mustafayev sonralar "*realistik gerçəkçiliyə*" geniş yer vermişdir. Rəssamın irsi milli teatr dekorasiyası sənətinin tarixində iz salmış əhəmiyyətli bir xəzinədir. Onun bədii, emosional yaradıcılığı bir çox rəssamlar kimi, İ.Axundovun da teatr rəssamı kimi formalaşmasına çox böyük təsir etmişdir. İ.Axundovun işlədiyi teatr dekorasiyaları bir daha təsdiq edirdi ki, o dövrdə Azərbaycan teatrı "*sırf realizm*" yolunda olmuşdur.

İsmayıl Axundov teatra ilk dəfə 1937-ci ildə görkəmli rejissor Ədil İsgəndərovdan dəvət alaraq, Akademik Milli Dram Teatrında onun qu-

ruluş verdiyi Mirzə İbrahimovun "Həyat" pyesinin tamaşasında geyim eskizlərini çəkmişdir. Bu teatrda 1938-ci ildə Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (həmçinin 1940-cı və 1957-ci il quruluşlarında), Cabbar Məcnunbəyovun "Yanar dərə", Səməd Vurğunun "Vaqif", 1944-cü ildə Cəfər Cabbarlının "1905-ci ildə", 1955-ci ildə Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" komediyasının tamaşalarında geyim rəssamı olub.

1938-ci ildə rejissor Məcid Zeynalovun hazırladığı "Müsyö Jordan və dərviş Məstəli şah" (Mirzə Fətəli Axundzadə) tamaşasında o özünün artıq tərtibatçı rəssam kimi ilk addımını atıb.

Bundan sonra çalışdığı AMDT-da o, 1939-cu ildə Onore de Balzakın "Ögey ana", Mehdi Hüseynin "Şöhrət", Cəlil Məmmədquluzadənin "Ölülər", 1943-cü ildə Aleksandr Ostrovskinin "Tufan", 1945-ci ildə Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz", 1948-ci ildə Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər", Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", 1949-cu ildə Sabit Rəhmanın "Aydınlıq", Cəfər Cabbarlının "Solğun çiçəklər", Anatoli Boryanovun "O tayda", Tur qardaşlarının (birgə yazan Leonid Tubelski+Pyotr Rıjey adlı yazıçıların təxəllüsü) "Bir evin sirri", 1952-ci ildə Karlo Qoldoninin "Mehmanxana sahibəsi", 1956-cı ildə Hüseyn Cavidin "Şeyx Sənan", 1961-ci ildə Sabit Rəhmanın "Əliqulu evlənir", Mehdi Hüseynin "Alov", 1966-cı ildə Cəfər Cabbarlının "Oqtay Eloğlu" əsərlərinin tamaşalarına həm monumental-romantik, həm də realist səpkilərdə səhnə tərtibatları təqdim edibdir.

Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" (1948) pyesinin tamaşası bunun bariz nümunəsidir. Bu tamaşada belə bir zənginləşdirici uzlaşma metodu öz kamil həllini tapmışdı. İsmayıl Axundov səhnədə Rusiya əyalət şəhərinin mənzərəsini təsvir etmişdi. Onun işində rus xarakteri və məişəti öz təcəssümünü taparaq pyesin ideyasına uyğun səhnəqrafik mühit yaradılmışdır. Xarakterik geyimlər bədii tərtibatın ümumi ansamblı ilə çox rahat harmoniya təşkil etmişdir.

İsmayıl Axundov 1936-cı ildə Mirzə İbrahimovun "Həyat" əsəri əsasında səhnələşdirilmiş tamaşaya çəkdiyi geyim və qrim eskizlərində zamanın dəqiq nəbzini tutmağı bacarmışdı. Bu eskizlərdə pyesin personajlarının dəqiq xarakterinin açılmasına nail olaraq, Əzim Əzimzadənin satirik xəttini davam etdirmişdi. Sözügedən tamaşanın bədii tərtibatı rejissor və rəssam Nüsrət Fətullayevə məxsusdur. Rəssamın bu tamaşaya verdiyi dekorasiyadan hiss olunur ki, o, həmçinin müasir mühitin ayrı-ayrı anlarını da çox müvəffəqiyyətlə canlandıra bilmişdir [3].

Biri-birlərini yaxşı anlayan iki sənətkar: Respublikanın Xalq artisti, Dövlət Mükafatı laureatı Nüsrət Fətullayev və İsmayıl Axundov bir çox tamaşalara birlikdə tərtibat vermişlər.

1937-ci ildə onlar M.F.Axundzadənin "Hacı Qara" pyesi əsasında səhnələşdirilmiş tamaşanın eskizləri üzərində işləmişlər. Əsasən əyləncəli planda şərh edilən komediya satirik çalar alaraq, ictimai məzmunun açılmasına kömək etmişdir. Xalqın ruhuna dərindən nüfuz etmələri, Azərbaycan ictimaiyyətinin mühafizəkar təbəqəsinin psixologiyasını bilmələri, qədim abidələri və xalq tətbiqi sənətini öyrənmələri İ.Axundov və N.Fətullayevə ifadəli səhnə dekorasiyası yaratmağa kömək etmişdir. Rəssamların geniş düşüncə tərzi rejissor tərəfindən qoyulan ideyanın açılmasına uğurla kömək etmişdir.

1956-cı ildə M.Əzizbəyov adına ADT-da (indiki Akademik Milli Dram Teatrı) səhnəyə qoyulan H.Cavidin "Şeyx Sənan" tamaşasının da tərtibatçı rəssamları İ.Axundov və N.Fətullayev olmuşlar. Yazılı mənbələrdən məlum olur ki, tamaşanın tərtibatı əsərin romantik ruhuna və müəllifin ümumi yaradıcılıq üslubuna sadiq qalmışdır [1, s.73-74]. Buna baxmayaraq, rejissor pyesin ideyasını daha çox reallığa doğru yönəltməyə çalışaraq bəzi səhnələri ixtisar etmişdir. Şeyx Sənanın gözünə görünmə səhnəsini mistika hesab etdikləri üçün, onun yuxu səhnəsini Şeyx Kəbirə danışması və Şeyx Kəbirin yuxunu yozması epizodlarını tamamilə ixtisar etmişdilər. Bu səbəbdən də Sənanın pəjmürdə halının səbəbi aydın olmamışdır.

Ədəbi tənqidçi Abbas Zamanovun qeydlərinə görə, tərtibatçı-rəssamlar N.Fətullayev və İ.Axundov tamaşaya yüksək zövqlə tərtibat vermis və bu səbəbdən də səhnə daha baxımlı təsir bağışlamışdır [5]. Rəssamların yaradıcılığına məxsus olan milliliyin, tarixiliyin və s. hiss

olunması əlbəttə ki, “Şeyx Sənan” tamaşasında da özünü büruzə verir. Bu tamaşa üçün təsvir olunmuş eskizlərdə Şərq memarlığı və mühiti, qədim Tiflis şəhərinin real görünüşü tam dolğunluğu ilə göz önündə canlanır.

Beləliklə, bu rəssamların hər birinin milli koloriti düzgün hissetmə qabiliyyəti “Şeyx Sənan” tamaşasında da özünü büruzə vermişdir. Tamaşanın dekorasiyalarından birində Ərəbistanda cərəyan edən hadisələr mühiti təqdim edilir. Səhnənin kənar hissələri şəbəkələr ilə əhatə olunmuş və yan tərəflərdə qarşıda sütunlar üzərində ərəb əlifbası ilə “Allah”, “Mühəmməd” sözləri yazılıb. Dekorasiyaya bu cür yanaşmaqla rəssam-dekoratorlar İslam-Şərq mühitinin əhval-ruhiyyəsini yaratmışlar. Mərkəzdə qalereyanın qarşısında təbiət mənzərəsi və məscid təsvir olunub. Rəssamlar əsasən açıq ahəngli koloritdən istifadə etmişlər. Sarı rəngin çoxluğu əsərin ideyasına uyğun hicran, ayrılıq mənasını daşımaqla yanaşı, həm də Ərəbistan səhralarına işarə edən rəmzi mənanı bildirir. Dekorasiyada həmçinin yaşıl rəngin istifadəsi İslamın simvolik mənası hesab edilə bilər. Ümumilikdə lirik əhval-ruhiyyəyə malik tamaşanın ideyası poetik görünüşlü dekorasiya ilə vəhdət təşkil edir.

Xumar və Zəhranın geyim eskizlərində də milli kolorit gözlənilmişdir. Zəhra (şək. 1) ağ geyimin üzərindən göy çarşab örtərək, qəhvəyisarı belbağı ilə təsvir edilmişdir. Uyğun rəng çalarları formalar dəyişməklə həmçinin Xumarın (şək. 2) geyimində də istifadə olunub. Xumar rolunun ifaçısı istedadlı aktrisa Hökumə Qurbanova, obrazın təbiəti ilə mühit arasında olan barışmazlığı aydın nəzərə çarpdırırdı. Geyimində istifadə olunan qırmızıya çalan rənglər güman ki, bu xüsusiyyətin ifadəsinə təkan vermişdir. Tamaşada Xumar həm də təbiətcə çox şən, oynaq, şivəli bir qız idi. Estetik cəhətdən lirik səciyyə daşıyan geyimdə aktrisanın ifası dağ şəlaləsini andırırdı. Onun şən gülüşü, şux yerişi, sevinc və məhəbbət dolu baxışları Xumarın daxilində gizlənmiş həyat eşqinin alovlandığını göstərirdi [2].

“Şeyx Sənan” tamaşasından sonra M.Əzizbəyov adına ADT-nın H.Cavid pyeslərinə müraciəti davam etmişdir. 1963-cü ildə teatrda, H.Cavidin 80 illik yubileyinə həsr edilmiş Ələsgər Şərifovun rejissorluğu ilə “Səyavuş” pyesi tamaşaya qoyulmuşdur. Tamaşanın bədii tərtibatçıları yenə də Nüsrət Fətullayev və İsmayıl Axundov idi.

“Səyavuş” pyesinin dekorasiyalarına nəzər yetirsək, burada da rəssamların yaradıcılığına xas olan realistik cizgilərlə simvolik elementlərin vəhdətini görə bilərik. İ.Axundovun və N.Fətullayevin birgə fəaliyyəti nəticəsində yaranan eskizlər, tamaşanın müxtəlif aktlarını əks etdirir. Tamaşanın proloqu üçün hazırlanmış təsvirdə qara fon üzərində – arxada kənd mühiti və ön planda uçulub yarımçıq qalmış qəsrin üstündə bir növ ildırımı xatırladan ağac əks olunub. Qəsrin üzərində və qarşıda verilən sütunun yuxarı hissəsində fantastik heyvan təsvirləri əks etdirilib. Sakitləşdirici çalarlarla işlənilmiş kənd təsviri ilə çılğın formalar və rənglərdən ibarət sarayın simvolik işarələrinin yanaşı göründüyü hissələrdə gözəçarpan ziddiyyət əsərin ideyası ilə uyğunluq kəsb edir. Qədim İran saraylarının mühitinə xas fantastik heyvan fiqurları həm sənədli dəqiqliyin təzahürünün, həm də saraylara xas olan amansız konflikt vəziyyətlərin ifadəsidir. Formaca ildırıma bənzər qurumuş ağac qalığının görünüşü tamaşada baş verəcək faciəyə işarədir (şək. 3). Qədim İran memarlığına xas olan heykəltəraşlıq nümunələrindən fantastik heyvan təsvirləri bütün eskizlərdə iştirak edir. Bu kimi formalara malik təsvirlər əlavə olaraq səhnənin yuxarı hissəsində də gerb kimi ustalıqla tətbiq edilmişdir. Eskizlər içərisində Keykavus sarayında Südabənin və Səyavuşun odda yandırılmasının nəzərdə tutulduğu səhnə üçün də müvafiq dekorasiya mövcuddur. Bütün eskizlərə xas olan alov rəngi səhnə eskizlərində xüsusi olaraq nəzərə çarpır. Bu səhnənin təsvirində rəssamlar mizanları, səhnədə aktyor hərəkətlərini xüsusi nəzərə almışlar (şək. 3).

Səyavuşun Turanda Firəngizlə ilk görüşü səhnəsi üçün nəzərdə tutulmuş eskizdə söyüd ağacları və mavi rəng, romantik məhəbbət əhval-ruhiyyəsi təəssüratını bağışlayaraq, əsərin süjet xəttinə çox uyğun seçilmişdir. Səhnənin yuxarı hissəsində təsvir olunmuş böyük nizə təsviri yenə də tamaşada daha sonra cərəyan edəcək müharibəyə nişanədir (şək. 4).

Tamaşa üçün hazırlanmış bütün eskizlərə nəzər salanda görürük ki, rəssamlar tamaşanın bütün aktları üçün ayrı-ayrılıqda dekorasiyalar

hazırlamışlar. Lakin yazılı mənbələrdən məlum olur ki, eskizlərin hamısı tamaşa zamanı tətbiq edilməmişdir. Rejissor pyesdə, haqqında danışdığımız epizodları qabardaraq, onlara geniş yer verdiyi üçün, "Səyavuş" bir növ o dövrün konyukturasına uyğun olaraq xalq mübarizəsini, xalq üsyanını təsvir edən tamaşaya çevrilmişdir. O, rejissor İ.Hidayətzadənin yolu ilə gedərək, xalq-qəhrəmanlıq dramı yaratmağa çalışmışdır.

Teatr dekorasiya sənətinə müəyyən yeniliklər gətirmiş İsmayıl Axundov həm də Azərbaycan Dövlət Musiqili Komediya Teatrında səhnələşdirilmiş Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad", Səid Rüstəmovun "Durna" (dramaturq Süleyman Rüstəm), Fikrət Əmirovun "Gözün aydın" (dramaturq Məhərrəm Əlizadə), Nəriman Məmmədov və Tofiq Bakıxanovun "Məmmədəli kurorta gedir" (dramaturq Atif Zeynallı) operettalarına əlvan tərtibatlar işləyib.

Rəssam kino sahəsində də fəaliyyət göstərib. Xüsusilə, "Arşın mal alan" (1945) filminin geyim rəssamı olub.

**Nəticə / *Conclusion***

İsmayıl Axundov səhnə tərtibatlarında klassik üslubda işləməyə üstünlük verib. Yaradıcılığı rənglərin şuxluğu və aydınlığı, kompozisiyanın sadəliyi, tərtibat işləri dramaturq və rejissor fikri ilə poetik ahəngdarlıq yaratması baxımından səciyyəvidir. İ.Axundov yaradıcılığında koloritin xüsusi həssaslıqla əks olunması əsas şərtlərdəndir.

**Ədəbiyyat / *References***


1. Səfərov Ç., Babayev A. Şərəfli yol. Bakı: Azərnəşr, 1974.
2. Təhmasib T. H.Cavid və teatr. Bakı: İşıq, 1988.
3. Сафаралиева Д.А. Театрально-декоративное искусство Советского Азербайджана, 1920-1941. Баку: Азгосиздат, 1968.
4. Эренгрос Б. Художник в театре. Москва: Всероссийское театральное общество, 1962.
5. Zamanov A. Новый спектакль театра им. Азизбекова. Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, R. Təhmasibin arxivi, fond № 622, siyahı № 1, sax. № 502.
6. https://az.wikipedia.org/wiki/%C4%B0smay%C4%B1l_Axundov


## Сценографическое творчество в азербайджанском театре художника Исмаила Ахундова


**Фарида Гулиева**
Доктор философии по искусствоведению
Институт архитектуры и искусства НАНА. Азербайджан.
E-mail: feridequliyeva.66@mail.ru



**Резюме.** Родившийся в 1907 г. в окрестностях Баку и прошедший за время жизни (ум. в 1969 г. в Кракове) богатый творческий путь Исмаил Ахундов – театральный художник, а также мастер графики и плаката Азербайджана, удостоившийся звания народный художник Азербайджанской ССР, лауреат Государственной премии СССР, с 1937 года работал в Азербайджанском государственном драматическом театре и в ряде других театров республики, осуществил художественное оформление для множества спектаклей и представлений. Данная статья ставит непосредственной целью освещение достижений именно сценогра-

фической деятельности И. Ахундова, который за время своего функционирования театральным художником, успешно решал эти задачи.

**Ключевые слова:** художник, Исмаил Ахундов, сценография, театр, художественное оформление, стиль





*Şək. 1; 2.*





*Şək. 3; 4.*